

# Etibar etdiyin birinə danış

## Lanzarote Konvensiyasında nəzərdə tutulmuş hüquqlarından istifadə et

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Avropa Şurasının “Etibar etdiyin birinə danış” adlı videoçarxı,  Lanzarote Konvensiyasının bir sıra əsas mesajlarını, xüsusilə uşağın güvəndiyi insanlar dairəsində baş verən cinsi sui-istifadəyə dair mövzunu önə çəkərək, bir qızın hekayəsi vasitəsilə 9-13 yaş arası uşaqlara cinsi zorakılığın nə olduğunu və ondan necə qorunmağı izah edir.

Avropa Şurası uşaqları zorakılıqdan, xüsusilə cinsi istismar və cinsi sui-istifadə hallarından qorumaq istəyir. Bu məqsədlə qəbul edilmiş konvensiyalardan biri- Lanzarote Konvensiyası zorakılığın bu növünə diqqət yetirir. Uşaqların bu konvensiyanın onlar üçün nələri nəzərdə tutduğunu və oradakı əsas mesajların nə olduğunu anlaması üçün “Etibar etdiyin birinə danış” adlı videoçarx uşaqlardan ibarət xüsusi bir qrup ilə əməkdaşlıq çərçivəsində hazırlanıb.

Bu kitabça həmin videodaçarxda yer alan əsas mesajları izah edir.



**Bütün uşaqların təhlükəsiz yaşamaq və cinsi zorakılıqdan qorunmaq hüququ var…**



… Amma elə insanlar var ki, uşaqlar üçün təhlükəli ola bilərlər və onlar uşaqlara zərər vermək istəyirlər..



**Bunu oxuyarkən bir az qorxa və ya
hətta utana bilərsən, amma oxumağa
davam et, çünki bütün uşaqlar
bilməlidirlər ki, belə insanlar HƏR
ZAMAN səhv edirlər.**




**Bəzi insanlar uşaqların bədəninin özəl hissələrindən öz cinsi həzzləri üçün istifadə etmək istəyirlər… Bu, cinsi sui-istifadə adlanır.**

**Əgər kimsə səndən alt paltarınla örtülən bədən hissələrinə toxunmağını istəyirsə və ya səni buna məcbur edirsə, ya da səndən onun bədəninin özəl hissələrinə toxunmağını tələb edirsə, bu, HƏR ZAMAN səhv hərəkətdir.**

Bəzi insanlar həmçinin pul qazanmaq üçün uşaqlardan cinsi məqsədlərlə istifadə etmək istəyirlər. Bu, cinsi istismar adlanır.

Əgər yetkin yaşlı bir şəxs səni hədələyərək və ya sənə pul, spirtli içki və ya hədiyyə verərək sənin bədənin və ya onun bədəni ilə bağlı səni kədərləndirən, utandıran və ya narahat edən hərəkətlər etməyə səni məcbur edirsə, bu HƏR ZAMAN yanlışdır.



Əgər kimsə səndən cinsi əlaqədə olan insanların videolarına və ya şəkillərinə baxmağını istəyirsə və ya səni buna məcbur edirsə, bu da yanlışdır.

Həmçinin, əgər internetdə kimsə səndə narahatlıq, qorxu və ya kədər hissi doğuracaq şəkillərini onlara göndərməyini istəyirsə və ya səni buna məcbur edirsə, bu da qəbuledilməzdir.

Onların həmçinin, məsələn, çılpaq olduqları vəziyyətdə özlərinin və ya bədən hissələrinin şəkillərini sənə göndərməyə icazəsi yoxdur.

Unutma: Səhv edən  o böyüklərdir… sən deyilsən!







Sənin ölkən istəyir ki, bütün uşaqlar cinsi zorakılıqdan müdafiə olunsun.

Bu səbəbdən, o uşaqları cinsi zorakılıqdan qorumaq və onların təhlükəsizliyini təmin etmək məqsədilə “Lanzarote Konvensiyası” adlı sənəddə bəzi önəmli vədlər verib.

Yeri gəlmişkən… Lanzarote, ölkələr tərəfindən uşaqlara bu vədlərin verildiyi məkan olaraq, İspaniyaya məxsus olan bir adadır.







Ən vacib vədlərdən bəziləri aşağıdakılardır:

1. Yardım istəyən uşaqlar ciddi qəbul ediləcək və dinləniləcək.

2. Uşaqları cinsi sui-istifadə edən və ya onları cinsi istismar edən böyüklər dayandırılacaq.

3. Cinsi zorakılığa məruz qalan uşaqlara, məsələn, polis, sosial işçi və ya həkim tərəfindən sağalmaları üçün yardım göstəriləcək. Onlar sənə kömək edəcəklər.





Sən və ya tanıdığın biri təhlükədədirsə, bunu etibar etdiyin və kömək edə biləcək birinə danış və ya əgər nə etməli olduğunu bilmirsənsə, onda ölkəndəki yardım xəttinə zəng et.

116111 – Azərbaycan Uşaq qaynar xətti

Avropa Şurası Fransanın Strasburq şəhərində yerləşən və 46 ölkəni birləşdirən Avropa təşkilatdır. Bu təşkilatın əsas məqsədi bütün üzv ölkələrdə insan hüquqlarının, o cümlədən uşaqların hüquqlarının qorunmasını və onlara qarşı hər cür zorakılığın qarşısının alınmasını təmin etməkdir.

Avropa Şurası üçün uşaqlarla bağlı sənədlərin hazırlanmasında uşaqların fikirlərinin dinlənilməsi və rəylərinin nəzərə alınması çox önəmlidir. “Etibar etdiyin birinə danış” adlı video və bu buklet birbaşa uşaqlarla əməkdaşlıq çərçivəsində hazırlanmışdır. Belfastda (Şimali İrlandiyada) Kraliçanın Universitetinin Uşaq Hüquqları Mərkəzi tərəfindən bir araya gətirilmiş uşaq və gənclər qrupu bu layihədə iştirak ediblər. Onlar “Etibar etdiyin birinə danış” adlı videonu hazırlamaq üçün çox çalışıblar və bu kitabçada sizə nəyin izah olunmalı olduğuna qərar vermək onların üzərinə düşüb. Bu səbəbdən Avropa Şurası uşaqların cinsi zorakılıq və cinsi istismardan qorunmaq hüquqlarını daha yaxşı başa düşmələrinə kömək etdikləri üçün aşağıdakı şəxslərə xüsusi təşəkkürünü bildirir: Anna C., Anna M., Caoimhe D., Caoimhe O., Kloe, Elen, Eoin, Georgia, Lea, Levin, Niamh, Oliver, Fillip və Peter. Uşaqların istəklərini ifadə etdiklərinə görə onlar həmçinin Brickwall komandasının animasiya mütəxəssislərinə təşəkkür edir.

Uşaq hüquqları və iştirakçılığı sahəsindəki bilik və təcrübələri ilə bu layihəni həqiqətən unikal edən Laura Lundy və Michelle Templetona da dərin təşəkkürümüzü bildiririk.

Avropa Şurası həmçinin bu materialın hazırlanmasına dəstək verdiyi üçün Lüksemburq Hökumətinə də təşəkkür edir.

- “Etibar etdiyin birinə danış” adlı videonu izlə və insan hüquqların haqqında daha ətraflı məlumat əldə et: www.coe.int/children
- Fikirlərini bizimlə bölüşmək üçün bizə yaz: lanzarote.committee@coe.int

AZE

**www.coe.int**

Avropa Şurası qitənin aparıcı insan hüquqları təşkilatıdır. Onun tərkibinə Avropa İttifaqının bütün üzvləri də daxil olmaqla, 46 üzv dövlət daxildir. Avropa Şurasına bütün üzv ölkələr insan hüquqlarını, demokratiyanı və qanunun aliliyini qorumaq məqsədi daşıyan İnsan hüquqları haqqında Avropa Konvensiyasını imzalamış və onun müddəalarını qəbul etmişlər. Konvensiyanın icrasına isə Avropa İnsan Hüquqları Məhkəməsi nəzarət edir.

Brickwall

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE